**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN XALQ MAHNILARININ TƏDQİQİ MƏSƏLƏLƏRİ

İxtisas: 6213.01 "Musiqi sənəti"

Elm sahəsi: Sənətşünaslıq

Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş

**DİSSERTASİYASININ**

**ƏLAVƏLƏRİ**


İddiaçı: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**_____________Leyla Ramiz qızı Zöhrabova**


**Bakı-2021**

**Mündəricat**

1. “Qoy gülüm gəlsin”......5
2. “Sandığa girsəm neylərsən”......6
3. “Aman Mələk”......8
4. “Sarı bülbül”......9
5. “Ey, bir vəfa yar səni”......10
6. “Qara tellər”......11
7. “Zirzəmilər dərində”......12
8. “Dəryadan balıq tutdum”......13
9. “Əlində şüşə”......14
10. “Dəsmal”......15
11. “Ölürəm, ay ellər qızı”......16
12. “Gəldim”......17
13. “Atlandım Nəriman ilə”......18
14. “Şeyda xanım”......19
15. “Lo-lo”......20
16. “Nar, nar, nargilə”......20
17. “Heyla lilay”......21
18. “Beşik başında”......22
19. “Lay-lay”......22
20. “Evləri Tərtər üstə”......23
21. “Eyləmi daşlı dağlar”......23
22. “Qara qaşın vəsməsi”......24
23. “İki alma”......25
24. “Əsmə, səba yelləri”......26
25. “A, nimtənə, nimtənə”......27
26. “Oğlan adın Məhəmməd”......28
27. “Boynunda var sarılıq”......29
28. “Bəri bax”......30
29. “Qubanın ağ alması”......31
30. “Pərican”......32
31. “Gül açdı”......33
32. “Su üzündə milçəyəm”......34
33. “Ay qız, sənə mayiləm”......35
34. “Babanın yolu daşdı”......36
35. “Zülfün dara”......37
36. “Sürməli qız”......38
37. “Qarabağda birdənəsən”......39
38. “Almanı atdım xarala”......40
39. “Bülbülün geydiyi sarı”......42
40. “Sona xanım”......43
41. “Kaşki, bayram olmuyeydi”......44
42. “Gəlmə, gəlmə”......45
43. “Küçələrə su səpmişəm”......46
44. “Apardı sellər Saranı”......47
45. “Cığey, cığey”......48
46. “Yar bizə qonaq gələcək”......49

47. “Bir cüt sona”......50
48. “Ağlama, ceyran balası, ağlama”......52
49. “Üç gündən bir”......54
50. “Yeri, dam üstə yeri”......55
51. “Piyada Koroğlu”......57
52. “Ay bülbüllər”......58
53. “Qaladan qalaya”......59
54. “Bəh-bəh”......60
55. “Ay lili, lili”......61
56. “Bulud zülflü”......62
57. “Səni çoxdan sevirəm”......64
58. “Qıyqacı baxma”......66
59. “Gəl görüm”......67
60. “Leyla”......68
61. “Nar-nar”......69
62. “Minəydim atın kəhərinə”......70
63. “Dağlarda çiçək”......71
64. “Muleyli”......71
65. “Bazarda alma”......73
66. “Həştərxana gedən”......74
67. “Hüsnü bağında”......75
68. “Sevirəm mən o gülü”......76
69. “Ayın aydınlığı”......76
70. “Bülbüllər oxur”......77
71. “Yarım gəşəngi”......78
72. “Ay qız, ay qız”......79
73. “Ay dilbər”......80
74. “Yeri-yeri qurbanın olum”......81
75. “Budur bir cüt qara göz”......82
76. “Səhər-səhər yaz çağı”......83
77. “Tütü nənəm”......83
78. “Saçın ucun hörməzlər”......84
79. “Gül oğlan”......85
80. “Çıxdı günəş”......87
81. “Qara qız”......87
82. “Su gəldi”......88
83. “Dağlarda çiçək”......89
84. “Sandığa girsəm neylərsən”......90
85. “Ağacda leylək”......92
86. “Dedim bir busə ver”......93
87. “Gülbaşmaq”......94
88. “Aman ovçu”......95
89. “Qara xal yar”......96
90. “Əlində sazın qurbanı”......97
91. “Bağçadan gələn səs”......98
92. “Getdi yar”......99
93. “Ay qadası”......100
94. “Şuşanın dağları”......101

95. “Ay qaraqaş, qaragöz”…………………………………………………………………...103
96. “Bazarda alma”……………………………………………………………………...105
97. “Ceyran bala”……………………………………………………………………….106
98. “Qubanın ağ alması”……………………………………………………………...108
99. “Sənsən gözəlim”………………………………………………………………....109
100. “Gözəl”……………………………………………………………………………..110
101. “Şəfəq sökülürkən”…………………………………………………………………111
102. “Ahu kimi”……………………………………………………………………....112
103. “Bağçada gül”…………………………………………………………………....113
104. “İş başına”……………………………………………………………………………114
105. “Azərbaycan maralı”………………………………………………………….....115
106. “Halay”……………………………………………………………………….......117
107. “Girdim yarın bağçasına”……………………………………………………......118
108.“Qalalıyam”…………………………………………………………………..……......120
109. “Nə gözəldir”……………………………………………………………….....121

# 1. “QOY GÜLÜM GƏLSİN”



Mən aşiqəm zirəsən,
Zəfəransan, zirəsən,
O günə qurban olum,
Sən qapıdan girəsən.

## 2. “SANDIĞA GİRSƏM NEYLƏRSƏN”









Oğlan:
Sən bir gözəl ceyran olsan,
Düzlərə qaçaraq olsan,
Mən bir mahir ovçu olub,
Səni ovlasam, neylərsən?

Oğlan:
Sən bir qızıl alma olsan,
Sandığa girəcək olsan,
Mən bir paslı açar olub,
Sandığı açsam, neylərsən?

Qız:
Sən bir mahir ovçu olsan,
Məni ovlayacağ olsan,
Mən bir qızıl alma olub, bala,
Sandığa girsəm, neylərsən?

Qız:
Sən bir paslı açar olsan,
Sandığı açacaq olsan,
Mən bəzəkli gəlin olub,
Sandığdan çıxsam, neylərsən?

Oğlan:
Hey...
Sən bəzəkli gəlin olsan,
Sandıqdan çıxacaq olsan,
Mən bir qəşəng oğlan olub,
Qoynuna girsəm, neylərsən?

## 3. "AMAN MƏLƏK"




Göydən gedir quba qazlar,
Laçın vurar tükün tozlar,
Ay canım Mələk, Mələk,
Alaçıqdan baxan qızlar,
Ol bizimlə yarı, Mələk,
Ay canım Mələk, Mələk.
Aman Mələk, ay canım Mələk, Mələk.

Bir evi var, bir eyvanı,
Uçuqdur eyvanın yanı,
Ay canım Mələk, Mələk,
Əvvəlki dillərin hanı,
Ol bizimlə yarı, Mələk,
Ay canım Mələk, Mələk.
Aman Mələk, ay canım Mələk, Mələk.

## 4. “SARI BÜLBÜL”




Vətən bağı al-əlvandır,
Yol üstündə sarı bülbül.
Ömür sürməli dövrandır,
Səsin gəlsin barı, bülbül.

Geyib yaşıl donun çöllər,
Həvəsinlə açır güllər,
Töküb şirin-şirin dillər,
Gəl oyadaq yarı bülbül.

Oxu, quşlar dilə gəlsin,
Xoş nəfəsin zilə gəlsin.
Yarım gülə-gülə gəlsin,
Mən çalanda tarı bülbül.

**5. "EY, BİR VƏFA YAR SƏNİ"**




Ey bivəfa, yar səni,
Necə salım yada mən.
Fələk qoymaz şad olam,
Bu fəna dünyada mən.

Eylərəm əndişəni,
Mən səbr üçün peşəni.
Başa vurram tişəni,
Bənzərəm Fərhadə mən.

Ayrı düşdüm gülümdən,
Gülümdən bülbülümdən.
Ey bivəfa əlindən,
Kimə gedim dadə mən.

## 6. "QARA TELLƏR"




Qara tellər, qara tellər,
Qap-qaradır, qara tellər.
Darananda qara tellər,
Yar könlümü qarət eylər.

Qara tellər, qara tellər,
Yar könlümü qarət eylər.

Mən aşiqəm ağ barama,
Qara teli çox darama,
Mənim ki, gözüm səndədir,
Özgəsini gəl arama.

Qara tellər, qara tellər,
Yar könlümü qarət eylər.

**7. “ZİRZƏMİLƏR DƏRİNDƏ”**




Zirzəmilər dərində,
Yerimi sal sərində.
Bir dəstə gül olaydım bala,
Sevgilimin əlində.

Gəl, gəl, gəl, bala,
Gəl, gəl, gəl, bala,
Ay gözəl oğlan.

# 8. "DƏRYADAN BALIQ TUTDUM"



Dəryadan balıq tutdum,
Tutdum günə qurutdum.
Qıdı-qıdı, qıdı-qıdı,
Yeni bir dərdə düşdüm,
Köhnə dərdi unutdum,
Ay bala, ay bala.

Gül yarpağını dərincə,
O nazik əllər incə.
O tellər əlimə düşsə,
Öpərəm incə-incə.

Çuxası yaşıl oğlan,
Gör nə yaraşır oğlan.
Qıdı-qıdı, qıdı-qıdı,
Keömə bizim qapıdan,
Atam savaşır oğlan,
Ay bala, ay bala.

Gül yarpağını dərincə,
O nazik əllər incə.
O tellər əlimə düşsə,
Öpərəm incə-incə.

Çəkməsi üzdən oğlan,
Gəl bizə gizdən, oğlan.
Qıdı-qıdı, qıdı-qıdı,
Mən nə dedim sən küsdün,
Əl çəkdin bizdən oğlan,
Ay bala, ay bala.

Gül yarpağını dərincə,
O nazik əllər incə.
O tellər əlimə düşsə,
Öpərəm incə-incə.

## 9. "ƏLİNDƏ ŞÜŞƏ"






Əlində şüşə,
Süvrüşə düşə,
Gülü bənövşə,
Tuman al mənə.

Tuman almışam, ay balam,
Heyran qalmışam.
Dur gəl yanıma, ay balam,
Qadan almışam.

Əlində kahı,
Çək-çəkək ahı,
Gülü vah-vahı,
Tuman al mənə.

Tuman almışam, ay balam,
Heyran qalmışam.
Dur gəl yanıma, ay balam,
Qadan almışam.

## 10. "DƏSMAL"




QIZ
Səhəngi aldım, nənə,
Suya yollandım, nənə.
Bu viranə çöllükdə,
Dəsmalı saldım, nənə.
Məni döydürmə, nənə,
Məni söydürmə, nənə.

NƏNƏ
Səhəngi aldın, qızım,
Suya yollandın, qızım,
Bu viranə çöllükdə,
Kimə rast oldun, qızım?
Səni döydürməm, qızım,
Səni söydürməm, qızım.

## 11. “ÖLÜRƏM, AY ELLƏR QIZI”




Çinni tuman vız-vızı,
Ölürəm, ay ellər qızı,
Dodaqları, yanağı,
Lalə kimi qırmızı.

Ölürəm, ay ellər qızı,
Yanıram ay ellər qızı,
Ölürəm, ay ellər qızı.

Arxalığın üçdümü?
Baftası gümüşdümü?
Başında şal badamı,
Mən alaram qadanı.

Ölürəm, ay ellər qızı,
Yanıram ay ellər qızı,
Ölürəm, ay ellər qızı.

**12. “GƏLDİM”**




Mən aşıq kəndə gəldim,
Bağ güllənendə gəldim,
İgid bir oğlan gəlib,
Eşitdim, mən də gəldim.

Mən aşıq daşdı gəldim,
Çayları daşdı gəldim,
Hamının ürəyindən-
Qəm-qüssə qaçdı, gəldim.

## 13. “ATLANDIM NƏRİMAN İLƏ”




Atlandım Nərman ilə,
Düşdüm Süleyman ilə, bala.
Düşdüm Süleyman ilə.
Kabab yedim, çay içdim,
Beynim doldu qan ilə, bala.
Beynim doldu qan ilə.

Qara qızam, yıldızam,
Həm şəkərəm, həm duzam, bala.
Həm şəkərəm, həm duzam.
Öldürmə, ay Süleyman,
Mən yazığam, yalqızam, bala.
Mən yazığam, mən qızam.

Sandıx üstə məfərə,
Gedin deyin Cədərə, bala.
Gedin deyin Cədərə.
Mən yarımdan küsmüşəm,
Göndərməsin səfərə, bala.
Göndərməsin səfərə.

## 14. “ŞEYDA XANIM”




Su gəlməz bağa neylim,
Dəyməz yarpağa neylim.
Yarım məndən küsübdür,
Gəlməz otağa neylim.

Su gəlir lilləndirir,
Bağçanı gülləndirir.
Dərdlini dindirməyin,
Dərd özü dilləndirir.

N ə q ə r a t:

Amandır, Şeyda xanım,
Yavaş get, mehribanım,
Sənə qurban bu canım.

## 15. “LO-LO”




Evdən evə işıqdı,
Lo-lo, lo-lo, ha lo-lo,
Məcməy dolu qaşıqdı,
Lo-lo, lo-lo, ha lo-lo.

Bizim oğlan neyləsin,
Lo-lo, lo-lo, ha lo-lo.
Sizin qızlar aşıqdı,
Lo-lo, lo-lo, ha lo-lo.

Evləri gün düşənə,
Lo-lo, lo-lo, ha lo-lo.
Alma qoydum nişana,
Lo-lo, lo-lo, ha lo-lo.

Qara yaylıq yaraşır,
Lo-lo, lo-lo, ha lo-lo.
Yardan ayrı düşənə,
Lo-lo, lo-lo, ha lo-lo.

## 16. “NAR, NAR, NARGİLƏ”






Narıncı tökdüm tasa,
Yarım düşdü tas-vasa.
Nar, nar, nargilə,
Durun gedək yar gilə.

Dərdimi yara deyin,
Bəlkə yar qulaq asa.
Nar, nar, nargilə,
Durun gedək yar gilə.

İynə sancdım divara,
Elçi göndərdim yara.
Nar, nar, nargilə,
Durun gedək yar gilə.

Elçidən cavab olmaz,
Özüm elçiyəm yara.
Nar, nar, nargilə,
Durun gedək yar gilə.

## 17. "HEYLA LİLAY"




Əzizim ağlamazdım,
Heyla lilay, laylilay.
Gülərdim ağlamazdım,
Heyla lilay, laylilay.
Bilsəydim vəfan budur,
Heyla lilay, laylilay.
Sənə bel bağlamazdım,
Heyla lilay, laylilay,
Heyla lilay, laylilay.

Əzizim neylim sənə,
Heyla lilay, laylilay.
Düşübdü meylim sənə,
Heyla lilay, laylilay.
Mən dönsəm, üzüm dönsün,
Heyla lilay, laylilay.
Sən dönsən, neylim sənə,
Heyla lilay, laylilay,
Heyla lilay, laylilay.

Əzizim gözlərinə,
Heyla lilay, laylilay,
Heyranam gözlərinə,
Heyla lilay, laylilay.
Özüm özünə qurban,
Heyla lilay, laylilay.
Gözlərim gözlərinə,
Heyla lilay, laylilay,
Heyla lilay, laylilay.

## 18. “BEŞİK BAŞINDA”




A quzum, körpə quzum,
Uyu, ey qara gözüm.
Çıxdı afakə[1] sözüm,
Bu nədir ağladığın,
Ürəyim dağladığın.

Evində, eşiyində,
Yat, quzum, beşiyində.
Dan ulduzu, bir də mən
Durmuşuq keşiyində.
Durmuşuq keşiyində.

## 19. “LAY-LAY”




Lay-lay dedim yatasan,
Qızıl gülə batasan,
Qızıl güllər içində,
Şirin yuxu tapasan,
Şirin yuxu tapasan.

## 20. “EVLƏRİ TƏRTƏR ÜSTƏ”




Evləri Tər-tər üstə.
Tər yorğan örtər üstə.

Yarın çuxası bizdə,
Görək nə örtər üstə.

Alaçığa girmərəm,
Saçlarımı hörmərəm.

O vəfasız yarımın,
Bir də üzün görmərəm.

## 21. “EYLƏMİ DAŞLI DAĞLAR”




Eyləmi daşlı dağlar.
Çınqıllı daşlı dağlar.
Qorxuram gec gələsən, ey,
Göz qala yaşlı dağlar.

Eylədinmi bağ üstə.
Şuşa Şirvan dağ üstə.
Nə qaydadır fələkdə, ey,
Dağı çəkər, dağ üstə.

Dağlara çən düşəndə.
Güllərə şeh düşəndə.
Ruhum qəfəsdə oynar, ey,
Yadıma sən düşəndə.

## 22. "QARA QAŞIN VƏSMƏSİ"




Qara qaşın vəsməsi,
Yandırıb yaxdı məni,
Gün kimi çaxdı məni.
Görüm səni yanasan, yanasan.
Aman, çəkmə sürməni,
Qaşa çəkmə vəsməni.

Qara gözün sürməsi,
Yandırıb yaxdı məni,
Gün kimi çaxdı məni.
Görüm səni yanasan, yanasan.
Aman, çəkmə sürməni,
Qaşa çəkmə vəsməni.

# 23. "İKİ ALMA"




Ağacda iki alma,
Birin al, birin alma.
Sallan, gülüm, sallan, gülüm,
Sallan, gülüm, axşam oldu,
Göndər gəlsin sevgilimi.

## 24. “ƏSMƏ, SƏBA YELLƏRİ”




Dağlarda tək gəzərəm hey,
Yarı görcək bəzərəm.
Əsmə, səba yelləri hey,
Tökmə qızıl gülləri, gülləri.

Qaraqaş, qara gözlü hey,
Qarabirçək gəzərəm.
Əsmə, səba yelləri hey,
Tökmə qızıl gülləri, gülləri.

## 25. "A, NİMTƏNƏ, NİMTƏNƏ"




Qalmazsan sən xaradan,
A nimtənə, nimtənə.
Atlasdan zərxaradan,
A nimtənə, nimtənə.
Gəlmisən Buxaradan,
A nimtənə, nimtənə.
Sən yaraşıqsan mənə,
A nimtənə, nimtənə.

Ərişin iplikdəndir,
A nimtənə, nimtənə.
Ərəcin ipəkdəndir,
A nimtənə, nimtənə.
Butan çiçək-çiçəkdir,
A nimtənə, nimtənə.
Yaraşıqsan geyənə,
A nimtənə, nimtənə.

Üstündə al butan var,
A nimtənə, nimtənə.
Səni başa atan var,
A nimtənə, nimtənə.
Yorğanında yatan var,
A nimtənə, nimtənə.
Bir dənəsən, bir dənə,
A nimtənə, nimtənə.

Həşyələrin qırmızı,
A nimtənə, nimtənə.
Bəzər paltarımızı,
A nimtənə, nimtənə.
Bəzər gəlini, qızı,
A nimtənə, nimtənə.
Atlas deyiblər sənə,
A nimtənə, nimtənə.

## 26. “OĞLAN ADIN MƏHƏMMƏD”




Oğlan adın Məhəmməd,
Dağlar arası cənnət.
Hamının yarı gəldi,
Verirsən mənə möhnət.
Liy-la li-li, liy-la li-lay,
Liy-la li-li, liy-li lay.

Oğlan adın Vaqufdu,
Dağlara gün doğufdu,
Sən verən qızıl üzük,
Barmağımı boğufdur.
Liy-la li-li, liy-la li-lay,
Liy-la li-li, liy-li lay.

Oğlan adın Yusufdu,
Dağlara kök düşüfdü,
Sən verən qızıl üzük,
Barmağımdan düşüfdü.
Liy-la li-li, liy-la li-lay,
Liy-la li-li, liy-li lay.

## 27. “BOYNUNDA VAR SARILIQ”




Boynunda var sarılıq,
Nə yaman olur ayrılıq.
Özündən qiyas eylə,
Gör nə günə qalırıq.

*Nəqarət*

Haray məməli gəlin,
Məmən yeməli gəlin.
Xəlvətdə bir sözüm var.
Sənə deməli gəlin.

Dəm üstədir damımız,
Qoşadır xırmanımız.
Sən ordan çıx, mən burdan,
Kor olsun düşmanımız.

*Nəqarət*

Çıxdım çini divara,
Baxdım o gözəl yara.
Mən baxdım, o baxmadı,
Lənət bivəfa yara.

*Nəqarət*

## 28. “BƏRİ BAX”




Bayramınız mübarək,
Aquşqadan baxanlar.
Üstünə od tökülsün,
Tək soyunub yatanlar.

Ay bəri bax, bəri bax,
Can bəri bax, bəri balam.
Ay bəri bax, bəri bax.

Qala dibi çaqala,
Yeməm rəngim sağala,
Qaş-göz ilə danışma,
Öldüm ay ceyran bala.

Ay bəri bax, bəri bax,
Can bəri bax, bəri balam
Ay bəri bax, bəri bax.

Pəncərədən daş gəlir,
Xumar gözdən yaş gəlir.
Səni mənə versələr,
Tanrıya da xoş gəlir.

Ay bəri bax, bəri bax,
Can bəri bax, bəri balam.
Ay bəri bax, bəri bax.

## 29. "QUBANIN AĞ ALMASI"




Qubanın ağ alması,
Yeməyə bağ alması,
Yarım gələnə qalıb,
Yaramın sağalması.

N ə q ə r a t

Qubadan alma aldım,
Yarıma yola saldım.
Yarım gələnə kimi,
Heyva kimi saraldım.

N ə q ə r a t

Quba məndən aralı,
Könlüm səndən yaralı.
Mən ki səni sevmişəm
Azərbaycan maralı!

N ə q ə r a t:

Sevirəm, sevirəm yar!
Sevirəm yar!
Yalqızam, yar can!
Aman, aman, sevirəm yar
Sevirəm yar!
Yalqızam, yar can!

## 30. “PƏRİCAN”




Tut ağacı boyunca,
Tut yemədim doyunca.
Yarı xəlvətdə gördüm,
Danışmadım doyunca.

*Nəqarət*

Pəri, Pərican, ay Pəri,
Gözləri mərcan, ay Pəri,
Mən sənə qurban, ay Pəri.

Mən aşiq nəynən alım,
Nəyim var, nəynən alım.
Küsdürüb yola saldım,
Könlünü nəynən alım.

*Nəqarət*

Armud ağacı suda,
Yar gedib mən tək burda
Olaydım yar yanında,
Xumar gözlər yuxuda.

*Nəqarət*

## 31. “GÜL AÇDI”




Gül açdı, bahar oldu,
Yar məndən kənar oldu,
Gülüm, gəl bizə, gəl bizə, gəl, gəl,
Gözün bənzər nərgizə.

Belə naz ilə baxma,
Məni yandırıb yaxma,
Gülüm, gəl bizə, gəl bizə, gəl, gəl,
Gözün bənzər nərgizə.

## 32. “SU ÜZÜNDƏ MİLÇƏYƏM”




Su üzündə milçəyəm,
Əl vurma köynəkçəyəm.
Nə qədər çirkin olsam,
Öz yarıma göyçəyəm.

Su üzündə samanam,
Əl vurma əl-amanam.
Yarım yaşıl dağ olsa,
Mən üstündə amanam.

Gəl, gəl, ay maralım, gəl,
Gəl, gəl, ay ceyranım, gəl,
Gəl, gəl, ay qurban olum sənə.

## 33. "AY QIZ, SƏNƏ MAYİLƏM"




Ay qız, sənə mayiləm,
Boynunda həmayiləm.
Dost payı şirin olar,
Hər nə versən qayiləm.

Qaşın, gözün, şirin sözün
Aldı mənim canımı.

Mən sənə qurban,
Gözləri mərcan.
Ay xanım, xanım,
Sən mənim canım,
Gəl səni alım,
Qadanı alım,
Ay gözəl.

## 34. “BABANIN YOLU DAŞDI”




Babanın yolu daşdı,
Zəhməti bizə xoşdu.
Qurban olaq Babaya,
Baba hamıdan başdı,
Hey Baba, can Baba,
Hey Baba, can Baba.

## 35. "ZÜLFÜN DARA"




Zülfün dara, sal yana,
Bu canım sənə qurban.
Çək qərdənini, aylə yeriş,
Ey məhitaban.

## 36. “SÜRMƏLİ QIZ”




Sudan gələn sürməli qız,
Çox incidir kuzə səni.
Elə naz ilə sən gəlirsən,
Aparırlar bizə səni,
Aparırlar bizə səni.

Kuzənə ipək düzərəm,
Eşqinə çöllər gəzərəm,
Bəs mən sənsiz necə dözərəm?
Di dur gəl, aman günüdür,
Eşqimin yaman günüdür.

Kuzəni əlindən allam,
Qolunu boynuma sallam.
Ay qız, səni mən özüm allam,
Di dur gəl, aman günüdür,
Eşqimin yaman günüdür.

## 37. “QARABAĞDA BİRDƏNƏSƏN”




Qarabağda bir dənəsən,
Tovuz kimi məstanəsən.
Əyil öpüm gül üzündən,
Etmə məni divanə sən.

Yar haray qurbanın ollam,
Ay haray tərlanım ollam,
Şəminə pərvanə ollam, balam,
Şəminə pərvanə ollam, ay balam,
Pərvanə ollam.

## 38. "ALMANI ATDIM XARALA"



Almanı atdım xarala,
Qaldı sarala-sarala.
Dağlarda döndün marala,
Ay tirmə köynək,
Ay sarı çəpkən,
Ay tirmə köynək, sarı çəpkən,
Hara maralısan?
Özü göyçək, sözü göyçək,
Hara maralısan?
Yarın bağında üzüm əsgəri,
Bağın dalından həzin səs gəlir,
Sağ ol gəl,var ol gəl,
Bir geçə mehman ol gəl!

Gəlin gedək bizim bağa,
Hərə çıxaq bir budağa.
Ləb-ləbə, dodağ-dodağa,
Ay tirmə köynək,
Ay sarı çəpkən,
Ay tirmə köynək, sarı çəpkən,
Hara maralısan?
Özü göyçək, sözü göyçək,
Hara maralısan?
Yarın bağında üzüm əsgəri,
Bağın dalından həzin səs gəlir,
Sağ ol gəl,var ol gəl,
Bir geçə mehman ol gəl!

# 39. “BÜLBÜLÜN GEYDİYİ SARI”




Bülbülün geydiyi sarı,
Mən ağlaram zarı-zarı.
İtirmişəm nazlı yarı,
Sən ağlama, mən ağlaram.

Bülbülün geydiyi atlas,
Atlasa iynələr batmaz.
Mənim yarım mənsiz yatmaz,
Sən ağlama, mən ağlaram.

**40. “SONA XANIM”**




Sona xanım, gəl eyvana,
Bir bax bu gözəl oğlana.
Doğrusun söyşə mərdanə,
Hüsnü cəmalı yaxşıdır.

Bu oğlanı mən görmüşəm,
Onu çoxdan mən sevmişəm.
Adını söyləsəm Qəşəm,
Ağ üzdə xalı yaxşıdır.

Altında vardır göy atı,
Pələng kimi qollar atı.
Bir anda mənzilə çatı,
Quyruğu yalı yaxşıdır.

Evlərinə getdim bayax,
Anası açdı qol-ayax.
Bal, yağ gətirdi qayqanax,
Dövləti, malı yaxşıdır.

Atama sirrim açaram,
Deməsəm ölləm açaram.
Verməz qoşullam qaçaram,
Otağı, zalı yaxşıdır.

## 41. “KAŞKİ, BAYRAM OLMUYEYDİ”




Kaşki bayram olmuyeydi,
Gülü rəngim solmuyeydi.
Kaşki yarım ölmüyeydi,
Alaydı məni kənara.

Gülü atdım ay divara,
Bülbül ay gələ dübarə.
Ala gözlü nazəninim,
Məni algilən kənara.

Nə bəlalıdır bu başım,
Fələk etdi ağu aşım.
Gözüm axtarır o yarı,
Axar ay bu qanlı yaşım.

Səninlə keçən o günlər,
Yadıma düşər sərasər.
Ala gözlü mahu peykər,
Məni algilən kənara.

## 42. “GƏLMƏ, GƏLMƏ”




Gəlmə, gəlmə, get, ay gülüm,
Ay dolandı, keçdi günüm.

Mən sənin kimi bivəfa,
Yarı neylərəm, ay gülüm.

Mən çökərkən eşqə cəfa
Sən sürürdün onda səfa.

Mən sənin kimi bivəfa
Yarı neylərəm, ay gülüm.

Bir güləm özüm, ay balam,
Bir gül istərəm, ay gülüm.

Çəkməyən cəfa, ay balam,
Yarı neylərəm, ay gülüm.

**43. "KÜÇƏLƏRƏ SU SƏPMİŞƏM"**

**Moderato cantabile**




Küçələrə su səpmişəm,
Yar gələndə toz olmasın.
Elə gəlsin, elə getsin,
Aramızda söz olmasın.

Samavara od salmışam,
İstəkana qənd salmışam.
Yarım gedib, tək qalmışam,
Nə əzizdir yarın canı!

Kasaları irəfdədir,
Hər biri bir tərəfdədir,
Görməmişəm bir həftədir,
Nə şirindir yarın canı!

**44. “APARDI SELLƏR SARANI”**




Arpa çayı aşdı-daşdı,
Sel Saranı aldı qaçdı,
Mənim yarım qələmqaşlı,
Apardı sellər Saramı,
Bir ala gözlü balamı, balamı, balamı.

## 45. “CIĞEY, CIĞEY”




Getdim gördüm bağda yatıb,
Qara tellər gülə batıb,
Məni qoyub yalqız yatıb.
Cığey, cığey, cıgey, cığey,
Dadey, dadey, dadey, hey.

Bizim ellər otlu olar,
Qoyun yeyər südlü olar,
Yar söhbəti dadlı olar,
Cığey, cığey, cıgey, cığey,
Dadey, dadey, dadey, hey.

## 46. “YAR BİZƏ QONAQ GƏLƏCƏK”




Piyalələr irəfdədir.
Hər biri bir tərəfdədir,
Görməmişəm bir həftədir.

*Nəqarət*

Samavara od salmışam.
İstəkana qənd salmışam,
Yarım gedib tək qalmışam.

*Nəqarət*

Yar bizə qonaq gələcək, balam.
Bilmirəm nə vaxt gələcək, gülüm,
Söz verib sabah gələcək.

## 47. “BİR CÜT SONA”









Ay ana, bu bir cüt sonanın,
Hansına qurban mən olum,
Hansına qurban mən olum.
Süzgün baxıb can alanın,
Hansına qurban mən olum,
Hansına qurban mən olum.

*Nəqarət*

Ay elli, günlü bəxtəvər,
Baxçası güllü bəxtəvər,
Ay şirin dilli bəxtəvər,
Ay şirin dilli bəxtəvər.

Səhərdən seyrana çıxdım,
Yan gördüm bağ icində,
Yan gördüm bağ icində.
Dərər, dərər dəstə bağlar,
Qızılgül, yarpaq içində,
Qızılgül, yarpaq içində.

*Nəqarət*

# 48. “AĞLAMA, CEYRAN BALASI, AĞLAMA”






Mənim çəpərdən aşmağın,
Ağlama, ceyran balası, ağlama,
Ağzımdan düşdü yaşmağım,
Ağlama, ceyran balası, ağlama,
Heç bilmədim harda qaldı,
Ağlama, ceyran balası, ağlama,
Ay mənim güllü başmağım,
Ağlama, ceyran balası, ağlama,
Gedər gözlərin qarası, ağlama.

Ay əzizəm, sizə gəlləm,
Ağlama, ceyran balası, ağlama,
Ay sürmə çək gözə gəlləm,
Ağlama, ceyran balası, ağlama,
Ay üzündə zəhmət çəksən,
Ağlama, ceyran balası, ağlama,
Ay qurtarsam sizə gəlləm,
Ağlama, ceyran balası, ağlama,
Gedər gözlərin qarası, ağlama.

## 49. "ÜÇ GÜNDƏN BİR"



Könlüm istər görüm yarı,
Üç gündən bir, beş gündən bir.
Arzularam vəfadarı,
Üç gündən bir, beş gündən bir.

*Nəqarət*

Gəl-gəl ay, gəl-gəl ay, gəl gözəl yarım,
Səndədir, səndədir hər ixtiyarım.
Kəssələr, assalar aşiqi dardan,
Dönmərəm, dönmərəm, sən kimi yardan.

## 50. “YERİ, DAM ÜSTƏ YERİ”






Yeri dam üstə yeri, balam,
Ay qızıl cam üstə yeri.
Ayaqların incisə, balam,
Ay çıx sinəm üstə yeri.

Getdim, gördüm yar otaqda,
Qoşa-qoşa xal yanaqda,
Öpüş yeri var buxaqda,
Al yanaqda, ay dodaqda,
Ay ölürəm.

Zərxaradan arxalıq, balam,
Ay əşrəfindən yaxalıq,
Bir busə vər cüt xaldan, balam,
Ay dadına yetsin, xalıq.

Getdim, gördüm yar otaqda,
Qoşa-qoşa xal yanaqda,
Öpüş yeri var buxaqda,
Al yanaqda, ay dodaqda,
Ay ölürəm.

Ayağında çəkməsi, balam,
Ay qızıldandır düyməsi.
Heyvaya, nara bənzər, balam,
Qoynundakı cüt məməsi.

Getdim, gördüm yar otaqda,
Qoşa-qoşa xal yanaqda,
Öpüş yeri var buxaqda,
Al yanaqda, ay dodaqda,
Ay ölürəm.

## 51. "PİYADA KOROĞLU"




Uca-uca dağlar başı
Qarlı da olur, qarsız da olur.
Cəhd elə bir işdə tanın
Sənli də olur, sənsiz də olur.

Koroğlunun atı gərək,
Atlı da olur, atsız da olur.
Bir igidin zatı gərək-
Varlı da olur, varsız da olur.

## 52. “AY BÜLBÜLLƏR”




Aman, aman ayrılıq, ay bülbüllər,
Olur yaman ayrılıq, ay bülbüllər,
Eşidəndə başımdan, ay bülbüllər,
Qalxır duman ayrılıq, ay bülbüllər.

Gülərəm gülən ola, ay bülbüllər,
Dərdimi bilən ola, ay bülbüllər,
Ağlamaqdan doymaram, ay bülbüllər,
Göz yaşım silən ola, ay bülbüllər.

## 53. “QALADAN QALAYA”




Qaladan qalaya nar yemək olmaz,
Bu gələn sonaya yar demək olmaz.

Qalanın dibində bir quş olaydım,
Gələnə, gedənə yoldaş olaydım.

## 54. “BƏH-BƏH”




Gül açılanda, yaz olar, bəh-bəh-bəh,
Dərdin o vaxtı az olar, bəh-bəh-bəh,
Gözəldə işvə, naz olar bəh-bəh-bəh,
Gəl-gəl, gözəl yar, sevirəm səni.

Yarın bağında şirin olur üzüm,
Yarın aynlığına necə dözüm,
Yara qurban olsun bu iki gözüm,
Gəl-gəl, gözəl yar, sevirəm səni.

Bağında gül əkərəm mən əzəldən,
Quş gələndə dən tökərəm xəzəldən,
Mən necə doyum sən kimi gözəldən,
Gəl-gəl, gözəl yar, sevirəm səni.

## 55. “AY LİLİ, LİLİ”




Sonadan sonaya soraq eylərəm,
Ay lili, lili, lili, lili, ay lili.
Yar alan yaylığı duvağ eylərəm,
Ay lili, lili, lili, lili, ay lili.
Özü bizə qəlsə, qonaq eylərəm,
Ay lili, lili, lili, lili, ay lili.

Bir şimayı, qanlı xəncər almışam,
Ay lili, lili, lili, lili, ay lili.
Yarın kəmərinə özüm salmışam,
Ay lili, lili, lili, lili, ay lili.
Yar ova gedibdir, yalqız qalmışam,
Ay lili, lili, lili, lili, ay lili.

## 56. “BULUD ZÜLFLÜ”






Bulud zülflü, ay qabaqlı, gözəlin,
Duruban başına dolanmaq gərək.
Bir evdə ki, sən tək gözəl olmaya,
Od düşübən o ev talanmaq gərək.

Qadanı mən alım,
Balanı mən alım, hey,
A tərlan, a ceyran,
Bəxtəvər mən ölləm, hey.

Sara xanım sarayından baxanda,
Ağ gərdənə həmayillər taxanda,
Qaşa sürmə, gözə vəsmə yaxanda,
Ağzı, burnu, qaşı, gözü tən gərək.

Qadanı mən alım,
Balanı mən alım, hey,
A tərlan, a ceyran,
Bəxtəvər mən ölləm, hey.

**57. “SƏNİ ÇOXDAN SEVİYƏM”**






Bağlamışam din-imanı zülfünə,
Mənim kimi heyran hanı zülfünə.

Çəkərəm nazını yarın,
Nə qədər naz eləyərsə.
Qurban ollam sazına,
Sazına, avazına,
Səni çoxdan sevirəm.

Sənsən mənim ayım, günüm, hilalım,
Dövlətim, iqbalım, cahi-cəlalım.

Çəkərəm nazını yarın,
Nə qədər naz eləyərsə.
Qurban ollam sazına,
Sazına, avazına,
Səni çoxdan sevirəm.

**58. “QIYQACI BAXMA”**




Həyətləri soğanlıq, balam,
Sular gəlir bulanlıq.
Təzə çıxan çitlərdən, balam,
Yara alım tumanlıq.

Qıyqacı baxmağın, aldı canımı.
Rəhm elə, ay gözəl, tökmə qanımı.

**59. "GƏL GÖRÜM"**




Gəl görüm, gəl görüm kimin yarısan?
Hansı igidlərin vəfadarısan?
Kimə qəst etmisən,əli qanlısan?

Ay alagöz balam, ay quzu balam.
Ağla balam, ağla gülüm!
Ayrılmısan yarın yox,
Heç bir vəfadarın yox.

Ayrılıqdır səni bu hala salan.
Bu dünyada yoxdur dərdinə qalan.
Eşq odu var səndə nə bilsin anan?

Ay alagöz balam, ay quzu balam.
Ağla balam, ağla gülüm!
Ayrılmısan yarın yox,
Heç bir vəfadarın yox.

## 60. “LEYLA”




Getsən bağdan əğər,
Güllər boynun əyər.
Bülbül qan, yaş tökər,
Ağzın şirin, şəkər.

Allı-güllü, Leyla,
Şirin dilli, Leyla,
Ay qız, Leyla, hey.
Hey, hey, hey, hey.

Qaşın, gözün qara,
Çəkmə məni dara,
Əynində al xara,
Canım qurban yara.

Allı-güllü, Leyla,
Şirin dilli, Leyla,
Ay qız, Leyla, hey.
Hey, hey, hey, hey.

Dedim adın Ceyran,
Ceyran sənə heyran,
Ətri səndən alar,
Bağçadakı reyhan.

Allı-güllü, Leyla,
Şirin dilli, Leyla,
Ay qız, Leyla, hey.
Hey, hey, hey, hey.

## 61. "NAR-NAR"




Gül-çiçəyi dərərəm, nar-nar,
Əlvan çələng hörərəm, nar-nar,
Hər gün səni görəndə, nar-nar,
Öz bəxtimi görərəm, nar-nar.

Dağlara gün düşəydi, nar-nar,
Demə neçin düşəydi, nar-nar,
Bizim evin yanından, nar-nar,
Yolun hər gün düşəydi, nar-nar.

Qanadlanıb uçaydım, nar-nar,
Qəmdəm uzaq qaçaydım, nar-nar,
Ürəyimi bir axşam, nar-nar,
Sevdiyimə açaydım, nar-nar.

Dostu yaddan seçəydik, nar-nar,
Bu bulaqdan içəydik, nar-nar,
Barı bizim küçədən, nar-nar,
Bir gün qoşa keçəydik, nar-nar.

## 62. "MİNƏYDİM ATIN KƏHƏRİNƏ"




Minəydim atın kəhərini,
Gəzəydim kürdün şəhərini,
Bala, bala, yaxan düymələ, düymələ.

Çıxaydım kürdün dağlarına,
Baxaydım yarın bağlarına,
Bala, bala, yaxan düymələ, düymələ.

## 63. “DAĞLARDA ÇİÇƏK”




Dağlarda çiçək, Məhəmməd Əli.
Çin gətir boçək, Məhəmməd Əli.

## 64. “MULEYLİ”






Pəncərənin milləri, Muleyli,
Açıb qızıl gülləri, Muleyli
Oğlanı yoldan eylər, Muleyli,
Qızın şirin dilləri, Muleyli.

Qızıl gülü biçərəm, Muleyli,
Üstündə and içərəm, Muleyli.
Gözəl qızlar içində, Muleyli,
Bircə qız yar seçərəm, Muleyli.

Qərənfiləm budama, Muleyli,
Buyur gedək o dama, Muleyli.
Əgər məni sevirsən, Muleyli,
Elçi göndər anama, Muleyli.

# 65. "BAZARDA ALMA"




Bazardan alma allam, sataram,
Xəlvətdə durma, gəlləm taparam.

Bağlardan çiçək dərrəm, sataram,
Bir üzü göyçək hardan taparam?!

Bazardan hulu allam, sataram,
Bir uca boylu hardan taparam?!

N ə q ə r a t:

Haray, yar əlindən,
O qara tellərindən.
Əgər izin versən, bala,
Öpərəm gözlərindən.

**66. "HƏŞTƏRXANA GEDƏN"**




Həştərxana gedən ey bir il bənd olur,
Ay qayıdıb gələndə yügü qənd olur.

# 67. “HÜSNÜ BAĞINDA”




Hüsnü bağında gəzəsən, gülü-sünbül dərəsən,
Sən kimi bir gözəli bağın içində görəsən.
Baxasan ləli, ləbinə, olasan məsti-xumar,
Deyəsən, bir belə işrət olamaz gər-görəsən.

## 68. “SEVİRƏM MƏN O GÜLÜ”




Sevirəm mən o gülü, öz gülü-
xəndamın ola,
O mənim lütfilə bu dərdimə
dərmanım ola, ola.
Gündə yüz yol canımı qurban
edərəm o gülə,
Ölmərəm o gül mənim qatili-
fərmanım ola, ola.

## 69. “AYIN AYDINLIĞI”




Ayın aydınlığı,
Hava nə xoşdur, ey.
Dilbərcan,
Zeybərcan.

## 70. “BÜLBÜLLƏR OXUR”







Bülbüllər oxur,
Cəh-cəh edir,
Bağda gül üstə.
Ay oğlan, boyu bəstə,
Gəl əyləş çəmən üstə.
Sən məndən busə istə, gülüm,
Mən deyim gözüm üstə.

## 71. "YARIM GƏŞƏNGİ"




Ey mehribanım, arami-canım,
Yoxdur fəraqə səbri-qərarım.
Zəngi-zəngi hey… zəngi,
Mənim yarım qəşəngi.

# 72. "AY QIZ, AY QIZ"




Mən aşiq nə yağıdı, əzizim nə yağıdı,
Nə dostu, nə yağıdı, nə dostu, nə yağıdı.
Yanağın gül qönçəsi, balam, yanağın gül gönçəsi,
Qoynun cənnət bağıdı, balam, qoynun cənnət bağıdı.

Ay qız, ay qız, ay gözəl, öldüm aman, aman, amandı,
Oxlamısan sinəmi, balam, qaşın kaman, kamandı,
Ürəyimdə rəhm yox, balam, elə haman, hamandı.

## 73. "AY DİLBƏR"




Dağların başın
Qışda qar alar,
Yar yarın görməsə
Rəngi saralar.

Araz dərindir,
Suyu sərindir.
Gəl nazlı dilbərim,
Bir məni dindir.

N ə q ə r a t:

Ay gözəlim, ay mələyim,
Gəl məni dindir.
Qəlbim sənindir.
Dövran nə gözəl, nə gözəl, nə gözəl!
Canan nə gözəl, nə gözəl, nə gözəl!
Ay dilbər, can dilbər, çal dilbər,
Tellər oynasın.

**74. "YERİ-YERİ QURBANIN OLUM"**




Yeri-yeri, qurbanın olum,
Aşiqin, heyranın olum.
Gözəllikdə bir dənəsən.

Yeri-yeri, qurbanın olum,
Gəl bəri, qurbanın olum,
Ay pəri, qurbanın olum.

Ay bircə gözəl su sonası,
Başında var ağ cunası.
Ağ dişlərin dürdanəsi.

Yeri-yeri, qurbanın olum,
Gəl bəri, qurbanın olum,
Ay pəri, qurbanın olum.

Xalları da var qoşa-qoşa,
Hər birisi bir tamaşa,
Mən vurğunam qələm qaşa.

Yeri-yeri, qurbanın olum,
Gəl bəri, qurbanın olum,
Ay pəri, qurbanın olum.

## 75. “BUDUR BİR CÜT QARA GÖZ”




Budur, bir cüt qara göz canımı almaqa gəlir,
Birisi qolların açıb boynuma salmaqa gəlir,
Birisi qəm-qüssə ilə könlümü çalmağa gəlir.

*Nəqarət*
Ağdı buxağı Güllünün,
Yaxşıdı çağı Güllünün,
Gün kimi işıq verir
Ayna buxağı Güllünün.

Birisi tez qayıdacaq, birisi qalmağa gəlir,
Birisi qolların açıb boynuma salmaqa gəlir,
Birisi qəm-qüssə ilə könlümü çalmağa gəlir.

*Nəqarət*

## 76. “SƏHƏR-SƏHƏR YAZ ÇAĞI”




Səhər, səhər yaz çağı,
Köçür oba yaylağa.
Gəlinlərin balağı
Batır lilə, batlağa.

Arvad, kişi, oğlan, qız,
Gön çarıqlı, başmaqlı,
Gedir qoruq-qaytaqsız,
Gəlin, qızlar yaşmaqlı.

## 77. “TÜTÜ NƏNƏM”




Qızıl inək, yiyən mənəm,
Sənə qızıl deyən mənəm.
Tütü nənəm, nənəm, nənəm,
Səni sağan mənəm, mənəm.

Görməmişəm, gözdən olum,
Vurmamışam, əldən olum.
Tütü nənəm, nənəm, nənəm,
Səni sağan mənəm, mənəm.

## 78. “SAÇIN UCUN HÖRMƏZLƏR”




Saçın ucun hörməzlər,
Səni mənə verməzlər.
Əyil, üzündən opüm,
Qaranlıqdır, görməzlər.

Arxalığın üçdümü?
Baftası gümüşdümü?
Başında şal badamı,
Alım sənin qadanı.

Dağlar başı tütündür,
Kimin bağrı bütündür?
Əyil, üzündən öpüm,
Dünya ölüm-itimdir.

## 79. "GÜL OĞLAN"


Moderato
1. Qı - zıl - gül o - yum - o - yum,
Də - rim si - nə - mə qo - yum.
Ya - ğış ya - ğar, yer doy - maz,
Mən sən - dən ne - cə do - yum.
Ö - zü bir gül, Sö - zü bir gül, Sa - çı sün - bül,




Qızılgül oyum-oyum,
Dərim sinəmə qoyum.
Yağış yağar, yer doymaz,
Mən səndən necə doyum.

N ə q ə r a t

Bu dağdan aşmaq olmaz,
Narıncı başmaq olmaz.
Bir cüt öpüşdən ötrü,
Yarnan savaşmaq olmaz.

N ə q ə r a t

## 80. "ÇIXDI GÜNƏŞ"




Çıxdı günəş, doldu cahan nur ilə,
Cütçü sürür tarlada cüt şur[1] ilə.

Atlar, öküzlər kotana güc verir,
Gah yürüyür, gah yıxılır, gah durur.

## 81. "QARA QIZ"




Atdandım Nərmanına,
Düşdüm Süleymanına, bala,
Düşdüm Süleymanına.
Kabab yedim, çay içdim,
Beynim dolu qan ilə, bala,
Beynim dolu qan ilə.

Sandıq üstə məfərə,
Gedin deyin Cəfərə, bala,
Gedin deyin Cəfərə.
Mən yarımdan küsmüşəm,
Göndərməsin səfərə, bala,
Göndərməsin səfərə.

## 82. "SU GƏLDİ"




Ay toy elə gəlim toya, su gəldi bürüdü yolları, ay gəlin.
Ay qurbanam belə boya, su gəldi bürüdü yolları, ay gəlin.
Kağızdan ağdır qolların, ay gəlin.

Ay aya bax, necə gedir, su gəldi bürüdü yolları, ay gəlin.
Ay yorulub gecə gedir, su gəldi bürüdü yolları, ay gəlin.
Kağızdan ağdır qolların, ay gəlin.

Ay qardaşın gül toyuna, su gəldi bürüdü yolları, ay gəlin.
Ay başlarda xonça gedir, su gəldi bürüdü yolları, ay gəlin.
Kağızdan ağdır qolların, ay gəlin.

## 83. "DAĞLARDA ÇİÇƏK"




Dağlarda çiçək, Məhəmmədəli,
Çin gətir biçək, Məhəmmədəli.

Dağlarda çiçək, Məhəmmədəli,
Bir üzü göyçək, Məhəmmədəli.

Bağlarda alma, Məhəmmədəli,
Uzaqda durma, Məhəmmədəli.

Boyuna qurban, Məhəmmədəli,
Toyuna qurban, Məhəmmədəli.

Oynasın qızlar, Məhəmmədəli,
Sən də oyna bir, Məhəmmədəli.

**84. “SANDIĞA GİRSƏM NEYLƏRSƏN”**



O ğ l a n: Sən bir gözəl ceyran olsan,
Düzlərə qaçacaq olsan,
Mən bir mahir ovçu olub,
Səni ovlasam, neylərsən?

Q ı z: Sən bir mahir ovçu olsan,
Məni ovlayacaq olsan,
Mən bir qızıl alma olub,
Sandığa girsəm, neylərsən?

O ğ l a n: Sən bir qızıl alma olsan,
Sandığa girəcək olsan,
Mən bir paslı açar olub,
Sandığı açsam, neylərsən?

Q ı z: Sən bir paslı açar olsan,
Sandığı açacaq olsan,
Mən bəzəkli gəlin olub,
Sandıqdan çıxsam, neylərsən?

O ğ l a n: Sən bəzəkli gəlin olsan,
Sandıqdan çıxacaq olsan,
Mən bir qəşəng oğlan olub,
Qoynuna girsəm, neylərsən?

# 85. “AĞACDA LEYLƏK”




– Ağacda leylək yuva bağlar, gedər,
Ay qız, sevən oğlan hara ağlar gedər.

– Mən sənin yarın deyiləm, ay oğlan,
Ay, bağçada barın deyiləm, ay oğlan.

– Alışdım yandım, xəbərin yox sənin,
Ay, mehri-vəfadan əsərin yox sənin.

– Mən sənin yarın deyiləm, ay oğlan,
Ay, bağçada barın deyiləm, ay oğlan.

## 86. “DEDİM BİR BUSƏ VER”




Dedim: “Bir busə ver, bir busə ver, xanım, amandır”.
Dedi: “Verməarəm”. Dedi: “Vermərəm, vermərəm,
Vermərəm, vermərəm, halım yamandır”.
Dedi: “Vermərəm, vermərəm, məgər talandır?”

Dedim: “Gəl yanıma, gəl yanıma, qadan canıma”.
Dedi: “Gəlmərəm”. Dedi: “Gəlmərəm, gəlmərəm,
Gəlmərəm, gəlmərəm, məgər zamandır?”
Dedi: “Gəlmərəm, gəlmərəm, halım yamandır”.

## 87. “GÜLBAŞMAQ”




Qız: Döngəmizdə duran oğlan,
Bığlarını buran oğlan,
Mənə kirpik vuran oğlan.
Ver mənim güllü başmağım,
Dabanı pullu başmağım.

Oğlan: Döngəmizdə durmamışam,
Bığlarımı burmamışam,
Sənə kirpik vurmamışam.
Hardan verim gül başmağın,
Dabanı pullu başmağın.

Qız: Gül bağçanda barın ollam,
Şirin heyvan, narın ollam,
Həmişəlik yarın ollam,
Gətir mənim gül başmağım,
Dabanı pullu başmağım.

Oğlan: Gül bağçamda barım olsan,
Şirin heyvam, narım olsan,
Həmişəlik yarım olsan,
Verrəm sənin gül başmağın,
Dabanı pullu başmağın.

## 88. “AMAN OVÇU”




Aman ovçu, vurma məni,
Mən bu yerin, a balam, maralıyam.
Maralıyam, maralıyam,
Mən bu yerin, a gülüm, maralıyam, bala,
Yar əlindən, a mama, yaralıyam.

Bu dağlarda maral gəzər,
Əl-ayağın, a balam, daşlar əzər.
Mən yarıma neyləmişəm
Yarım məndən, a mama, kənar gəzər,
Yarım məndən, a mama, kənar gəzər.

## 89. “QARA XAL YAR”




Araxçının məndədi, qara xal yar,
Sərmişəm çəməndədi, qara xal yar,
Aləm gözələ dönsə, qara xal yar,
Mənim gözüm səndədi, qara xal yar.

Araxçının dardarı, qara xal yar,
Gəl başımın sərdarı, qara xal yar,
Evimizə gəlmədin, qara xal yar,
Qonşumuza gəl barı, qara xal yar.

Araxçının haşımı, qara xal yar,
Hara qoyum başımı, qara xal yar,
Mən ki səni sevirəm, qara xal yar,
Tökmə gözün yaşını, qara xal yar.

## 90. "ƏLİNDƏ SAZIN QURBANI"




Əlində sazın qurbanı,
Eyləmə, nazın qurbanı,
Qoy olum gözün qurbanı.

N ə q ə r a t

Getdim gördüm su doldurur,
Su yerinə qum doldurur,
Qəmzəsi oğlan öldürür.

N ə q ə r a t

Nə baxırsan yanı-yanı,
Olum gözlərin qurbanı,
Əvvəlki məhəbbət hanı?

N ə q ə r a t:

Öldürmə məni ey,
Dindirmə məni ey.
Gəl-gəl nazilən, ey nazilən, a balam,
Söhbət sazilən, ey sazilən,
Dur gəl nazilən, ey nazilən.

## 91. "BAĞÇADAN GƏLƏN SƏS"




Bağçadan gələn ey, səs eylər, balam,

Səni yanasan, ay qız,
Bircə dənəsən, ay qız.

Bülbül oxur ha, səs eylər, balam,
Öldürdün məni, bəs eylər, balam.

Abı-yaşıla ey, bürünür balam,

Səni yanasan, ay qız,
Bircə dənəsən, ay qız.

Yarın dalınca ha sürünür, balam,
Yel vurur ey, sinən görünür, balam.

Səni yanasan, ay qız,
Bircə dənəsən, ay qız.
Aparırlar səni bəy yanına, balam,
Xan yanına.
Məni danasan, ay qız,
Bircə dənəsən, ay qız.

**92. “GETDİ YAR”**




Başına dolanım, harda qalmısan,
İntizar gözümü yolda qoymusan.
Belə məlum olur ki, məndən doymusan.

Mən sənə neyləmişəm, ceyran balası,
Ürəyimə vurmusan hicran yarası.
O yarı mən sevirəm, nədir çarəsi?

Boynuna salmısan zülfündən zəncir,
Mən sənin əsirinəm, gəl, məni dindir,
Şirin-şirin sözlərlə könlümü dindir.

N ə q ə r a t:

Getdi yar, getdi yar, aldatdı məni,
Yarımın qüssəsi saraltdı məni.

## 93. “AY QADASI”




Qaşların hilal,
Ağ üzündə xal,
Məndə yoxdur hal,
Ay qadası.

Ay bala, Fatma,
Qaşları çatma,
Gəl məni atma,
Ay qadası.

Yandım eşqinə,
Qurbanam sənə,
Naz etmə mənə,
Ay qadası.

Əqlimi aldın,
Bu günə saldın,
Mən yalqız qaldım,
Ay qadası.

N ə q ə r a t:

Sözlərin şəkər,
Olmasam, əgər,
Kim nazın çəkər,
Ay qadası?

## 94. "ŞUŞANIN DAĞLARI"



Şuşanın dağları deyil dumanlı,
Qırmızı qoftalı, yaşıl tumanlı.

N ə q ə r a t:

Ay qız, bu nə qaş-göz, bu nə tel,
Ölürəm dərdindən onu bil,
Danışmasan da barı, gül.

Şuşada axşamlar doğar ulduzlar.
Onlardan gözəldir gəlinlər, qızlar,
Oturub yol üstə yarını gözlər.

N ə q ə r a t:

## 95. "AY QARAQAŞ, QARAGÖZ"






Sevgili yarın qaşları
Alıb canımı neynim.
Aşiq olmuşam mən sənə,
Düşübdür sənə meylim.

N ə q ə r a t:

Ağ buxağda xalın görüb heyranın ollam,
Gəl məni qonaq elə, gözəl, mən sənin ollam.
Qoynunda var bir cüt bar,
Biri heyva, biri nar.
Gəl, gözüm üstə yerin var,
Ay qaraqaş, qaragöz.

Çün bahar olcaq oxuyur,
Bülbüllər çəmən içrə.
Könlüm açılır görcək,
Səni yasəmən içrə.

# 96. "BAZARDA ALMA"




Bazardan alma allam, sataram,
Xəlvətdə durma, gəlləm taparam.

Bağlardan çiçək dərrəm, sataram,
Bir üzü göyçək hardan taparam?!

Bazardan hulu allam, sataram,
Bir uca boylu hardan taparam?!

N ə q ə r a t:

Haray, yar əlindən,
O qara tellərindən.
Əgər izin versən, bala,
Öpərəm gözlərindən.

**97. “CEYRAN BALA”**



Bir yaylığım vardır gülü özündən,
Ay dəli balam, ay dəli.
Dolanım başına, öpüm üzündən,
Ay dəli balam, ay dəli.
Mən nə dedim, küsdün mənim sözümdən.

N ə q ə r a t:

Ölürəm, ay ceyran, ay ceyran, balam,
Yanıram, ay ceyran, balam ey,
Balam ey, balam ey, balam.

Asta yeri kəmər düşər belindən,
Ay dəli balam, ay dəli.
Nə eşitdin mən yazığın dilindən,
Ay dəli balam, ay dəli.
Ayrı düşdüm sevgilimdən, gülümdən.

## 98. "QUBANIN AĞ ALMASI"




Qubanın ağ alması,
Yeməyə bağ alması,
Yarım gələnə qalıb,
Yaramın sağalması.

N ə q ə r a t

Qubadan alma aldım,
Yarıma yola saldım.
Yarım gələnə kimi,
Heyva kimi saraldım.

N ə q ə r a t

Quba məndən aralı,
Könlüm səndən yaralı.
Mən ki səni sevmişəm
Azərbaycan maralı!

N ə q ə r a t:

Sevirəm, sevirəm yar!
Sevirəm yar!
Yalqızam, yar can!
Aman, aman, sevirəm yar
Sevirəm yar!
Yalqızam, yar can!

## 99. “SƏNSƏN GÖZƏLİM”




Sənsən gözəlim, etməm giley mən.
Etsəm düşərəm, bala, dildən-dilə mən.

Bir bülbül idim, uçdum çəmənə,
Düşsəm qonaram, bala, güldən-gülə mən.

N ə q ə r a t:

Sən get gecələr əğyar ilə gəz.
Qoy sübh eyləyim, bala, ahu ilə mən.

## 100. "GÖZƏL"




Gözəl, sənə məlum olsun,
Alışıram, yanıram mən.
Ala gözlərin görəndə
Canımdan usanıram mən.

Mənim adım Ələsgərdi,
Adım dillərdə əzbərdi.
Xalların dürrü gövhərdi
Sərrafıyam, tanıram mən.

N ə q ə r a t:

Hansı dağın maralısan,
Hayıf, məndən aralısan.
Sən də yardan yaralısan,
Duruşundan qanıram mən.

# 101. "ŞƏFƏQ SÖKÜLÜRKƏN"



## 102. "AHU KİMİ"




Ahu kimi gözlərin,
Şirin-şirin sözlərin.
Sən mənimsən, mən sənin,
Nəyə lazım sözlərin.

N ə q ə r a t:

Canım, gözüm, ay sözüm,
Sənsiz mən necə dözüm.

Sənsən mənim öz gülüm,
Çəməndəki bülbülüm,
Mən səndən əl üzmərəm,
Sənsən mənim sevgilim.

N ə q ə r a t:

Canım, gözüm, ay sözüm,
Sənsiz mən necə dözüm.

Ay qız, dur gəl yanıma,
Qadan-balan canıma.
Mən səndən əl üzmərəm,
And olsun vicdanıma.

N ə q ə r a t:

Canım, gözüm, ay sözüm,
Sənsiz mən necə dözüm.

## 103. “BAĞÇADA GÜL”




Şəfəq saçır gün bizə,
Pəh-pəh, nə gözəl olur.
Çıxaq tarlaya, düzə,
Pəh-pəh, nə gözəl olur.
Qızlar, bu al səhərdə
Gəlin, duraq üz-üzə.

Tarlalarda biz gəzək,
Pəh-pəh, nə gözəl olur.
Pambıq dərək, gül dərək,
Pəh-pəh, nə gözəl olur.
Muğanın sərvətindən
Hər tərəfə göndərək.

N ə q ə r a t:

Bağçalar gül açır,
Bülbüllər dil açır,
Geyinir al-əlvan,
Pəh-pəh, nə gözəl.

**104. “İŞ BAŞINA”**



## 105. “AZƏRBAYCAN MARALI”



Ay qız, gəzmə aralı,
Könlüm səndən yaralı.
Gözlərinə heyranam,
Azərbaycan maralı.

Sən bulaq üstə gələndə,
Qıyqacı baxıb güləndə,
Aldın səbri-qərarım,
Azərbaycan maralı.

## 106. "HALAY"


Largo
Hay- lo- lo- lo- lo- lo- lo, ya lə- li.
Ay bu da - ğın cey - ra - nı yar,
Ay cey - ra - nın hey - ra - nı yar.
Ay qo - şa gə - zər bül - bül - lər,
Ay a - dax - lın bəs ha - nı, yar?
Hay- lo- lo- lo- lo- lo- lo, ya lə- li.
Allegro
Ha-lay ca - nım, ha-la - yı dön - dər bə - ri.
Ha - lay ca - nım, qı - zıl - gül - dən bu - ta - san,
Ha - lay ca - nım, dos - tu ə - ziz tu - ta - san.
Ha - lay ca - nım, mən o gül - dən de - yi - ləm,
Ha - lay ca - nım, iy - lə - yə - sən a - ta - san.

## 107. “GİRDİM YARIN BAĞÇASINA”



Girdim yarın bağçasına, çiçəklər açmış,
O yar mənim ürəyimə yaralar saçmış.

N ə q ə r a t

Girdim yarın dəryasına, gəmim dolmadı,
Gənc yaşımda bir yar sevdim, mənim olmadı.

N ə q ə r a t:

Gəl, gəl, gəl, gözəlim gəl, gəl görüm səni,
Əgər qismətim olarsa, alaram səni.

## 108.“QALALIYAM”




Qalalıyam, qalalı,
De gülüm nanay, ay naninay.
Kəkliyinin səkili, hay,
Kəkliyinin səkili.
Burda bir yar görmüşəm,
Burda bir yar sevmişəm, hay,
Onun kimdir vəkili, hay,
Onun kimdir vəkili.

Dam üstədir damımız,
De gülüm nanay, ay naninay.
Qoşadır eyvanımız, hay,
Qoşadır eyvanımız.
Sən ordan çıx, mən burdan, hay,
Kor olsun düşmənimiz, hay,
Kor olsun düşmənimiz.

N ə q ə r a t:

Qız belin incədir, incə,
Ləblərin qonçadır, qonça.
Məmələrin bənzər turunca,
Get, gəlirəm, yar dalınca.

## 109. “NƏ GÖZƏLDİR”




Bu cəh-cəh edən bülbül,
Bax, gör nə gözəldir!
Güllər arası sünbül,
Bax, gör nə gözəldir!

Sevdim səni mən, yarım,
Bir gəl mənə sən rəhm et.
Bax, bu çəmənə bir də,
Hər yerdə çiçək, gül,
Bax, gör nə gözəldir!